Təlimlərin məqsədi müasir idarəetmə bilik və bacarığına yiyələnmiş, informasiya texnologiyalarına bələd, ölkəmizin təhsil və sosial inkişafına töhfə verə biləcək məktəb direktorlarını yetişdirmək və təkmilləşdirməkdir.

Təlimlər yalnız **Bakı şəhərində** fəaliyyət göstərən ümumi təhsil müəssisələrində işləyən təhsil işçilərini əhatə edəcək.

**Təlimlərin müddəti:**

Təlimlər 2015-ci ilin yanvar – aprel (3 ay) tarixlərini əhatə edəcək.

Dərslər gündə 4 saat (həftəlik 16 saat) olmaqla, həftənin 4 günü təşkil ediləcək.

Təlimlərin günortadan sonra keçirilməsi planlaşdırılır.

**Təlimdə əhatə ediləcək mövzular:**

• Təhsildə keyfiyyətin idarəedilməsi

• Təhsili idarəetmənin hüquqi əsasları

• Kompüter və təlim texnologiyaları

• Təhsildə statistika və təhlil

• Təhsilin idarəedilməsi və monitorinqi

• Təhsili idarəetmənin psixoloji əsasları

• Kurikulum: Nəzəriyyə və tətbiq

• Təhsildə maliyyənin idarəolunması

Eyni zamanda iştirakçılar üçün müxtəlif uğurlu təcrübəyə malik məktəblərə səfərlər, qısamüddətli praktika, Təhsil Nazirliyinin əməkdaşlarının və müxtəlif təhsil ekspertlərinin iştirakı ilə məruzələr də təşkil ediləcək.

**Müsabiqədə iştirak üçün minimum tələblər:**

• Ali pedaqoji təhsil

• 5 (beş) il pedaqoji iş təcrübəsi

**Namizədlərdən gözlənilən digər keyfiyyətlər:**

• Liderlik bacarığı

• Yüksək motivasiyalılıq

• Səmərəli qərar qəbuletmə bacarığı

• Nəticəyönümlülük

• İKT-dən istifadə bacarığı

• Məntiqi düşüncə bacarığı

**Müraciət qaydası:**

Yuxarıda qeyd edilmiş tələblərə uyğun gələn namizədlər ərizə formasını (ƏLAVƏ) dolduraraq telim@edu.gov.az , telim@qu.edu.az elektron poçt ünvanlarına göndərməlidirlər.

**Qeyd:** Bütün yazışmalar və bildirişlər elektron poçt ünvanı ilə aparılacaq. Bu səbəbdən şəxsi elektron poçt ünvanlarınızdan istifadə etməyiniz və mütəmadi olaraq yoxlamağınız vacibdir.

**Müraciət üçün son tarix:** 30 noyabr 2014-cü il

**Seçim qaydaları:**

Təlim iştirakçıları 3 mərhələli seçim əsasında müəyyən ediləcək. 1-ci mərhələdə namizədlər elektron poçt ünvanlarına (telim@edu.gov.az, telim@qu.edu.az) göndərəcəkləri ərizə forması əsasında seçiləcəklər. Növbəti mərhələdə namizədlərin Azərbaycan dilində rəsmi yazı və məntiqi düşüncə bacarıqları qiymətləndiriləcək. Bu mərhələdə uğur qazanmış namizədlər növbəti mərhələyə - müsahibəyə dəvət ediləcəklər. Hər üç mərhələnin nəticəsi olaraq 50 nəfərin təlimlərə seçimi nəzərdə tutulur.

**Yekun qiymətləndirmə:**

Təlimlərdə iştirak etmiş şəxslər Təhsil Nazirliyi tərəfindən təşkil olunacaq yekun qiymətləndirmədə iştirak edəcəklər. İmtahanlarda qənaətbəxş nəticə göstərmiş namizədlərə "Uğur sertifikatı" təqdim olunacaq. "Uğur sertifikatı" əldə etmiş və hal-hazırda məktəb direktoru vəzifəsində çalışan şəxslərin işlərində səmərəliliyin artırılması üçün müəyyən həvəsləndirmələr təyin olunacaq, hal-hazırda direktor vəzifəsində çalışmayan digər şəxslər isə direktor vəzifəsi üzrə vakant yerlərə təyin olunmaq üçün ehtiyat kadr kimi qeydə alınacaqlar.

Müraciət forması